# Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı və emblemi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

«Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında Əsasnamə» təsdiq edilsin (Əlavə I).

«Azərbaycan Respublikası gömrük orqanlarının bayrağının təsviri» təsdiq edilsin (Əlavə II).

«Azərbaycan Respublikası gömrük orqanlarının emblemi haqqında Əsasnamə» təsdiq edilsin (Əlavə III).

«Azərbaycan Respublikası gömrük orqanlarının embleminin təsviri» təsdiq edilsin (Əlavə IV).

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 13 aprel 2012-ci il***

***№ 607***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 aprel 2012-ci il, № 80) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 30 aprel 2012-ci il, № 4, maddə 286) («VneshExpertService» LLC).***

*Əlavə I*

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2012-ci il 13 aprel tarixli,*
*Fərmanı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında Əsasnamə

1. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı gömrük orqanlarının şərəf və şöhrət rəmzidir. Bu bayraq Azərbaycan Respublikası gömrük orqanlarının hər bir işçisinə Azərbaycan Respublikasının iqtisadi suverenliyini və təhlükəsizliyini müdafiə etmək, öz xidməti vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək və gömrük xidməti intizamının tələblərinə əməl etmək borcunu xatırladır.

2. Gömrük orqanlarına məxsus dəniz və çay gəmiləri Azərbaycan Respublikası gömrük orqanlarının bayrağını daşıyır.

3. Dəniz və çay gəmilərində istifadə olunan Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı hərəkət zamanı qafeldə, dayanacaqda olduqda isə arxa flaqştokda qaldırılır.

4. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağının təsviri gömrük orqanlarına məxsus hava gəmilərinin üzərinə vurulur.

5. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı Azərbaycan Respublikasının dövlət bayrağı ilə birlikdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin iş otağında və Komitə tərəfindən keçirilən rəsmi tədbirlər zamanı kollegiya zalında «Azərbaycan Respublikası dövlət bayrağının istifadəsi qaydaları haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq yerləşdirilir.

*Əlavə II*

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2012-ci il 13 aprel tarixli,*
*Fərmanı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası gömrük orqanlarının bayrağının təsviri

1. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı eninin uzunluğuna nisbəti 1:2 olan, açıq mavi (səma) rəngli düz dördbucaqlı ipək parçadan hazırlanır.

2. Bayrağın aşağıdakı 1/3 hissəsində soldan sağa doğru avtomobil, dəmir, hava və dəniz yollarının ağ rəngli şərti təsvirləri verilmişdir.

3. Bayrağın yuxarı sol hissəsində Azərbaycan Respublikası gömrük orqanlarının emblemi təsvir edilmişdir.

4. Bayrağın arxa tərəfi üz tərəfinin güzgülü əksi kimi təsvir edilir (bayrağın şəkli əlavə edilir).



***Əlavə III***

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2012-ci il 13 aprel tarixli,*
*Fərmanı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası gömrük orqanlarının emblemi haqqında Əsasnamə

1. Azərbaycan Respublikası gömrük orqanlarının emblemi gömrük orqanlarının rəmzidir. Bu emblem Azərbaycan Respublikası gömrük orqanlarının hər bir işçisinə Azərbaycan Respublikasının iqtisadi suverenliyini və təhlükəsizliyini müdafiə etmək, öz xidməti vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək və gömrük xidməti intizamının tələblərinə əməl etmək borcunu xatırladır.

2. Azərbaycan Respublikası gömrük orqanlarının emblemi gömrük orqanları işçilərinin, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə mənsubiyyətini bildirən nişandır.

3. Azərbaycan Respublikası gömrük orqanlarının emblemi Dövlət Gömrük Komitəsinin blanklarında, gömrük orqanlarının inzibati binalarının adı göstərilən lövhələrində, gömrük orqanlarına məxsus avtonəqliyyat vasitələrində, dəniz, çay və hava gəmilərində, xüsusi geyim formasında və fərqlənmə nişanlarında yerləşdirilir.

4. Azərbaycan Respublikası gömrük orqanlarının emblemi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin iş otağında, Komitənin kollegiya zalında və Azərbaycan Respublikası gömrük orqanlarının bayrağında da yerləşdirilir.

5. Azərbaycan Respublikası gömrük orqanlarının embleminin təsvirindən istifadəyə aşağıdakı hallarda yol verilir:

5.1. Azərbaycan Respublikası gömrük orqanlarının çap məhsullarında, kino, video və foto materiallarında;

5.2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sifarişi ilə hazırlanan reklam-informasiya və suvenir məhsullarında (prospektlərdə, bukletlərdə, təqvimlərdə, nişanlarda, vımpellərdə, kiçik bayraqlarda, saatlarda, qablarda, medalyonlarda, dəftərxana ləvazimatında və digər məhsullarda).

*Əlavə IV*

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2012-ci il 13 aprel tarixli,*
*Fərmanı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası gömrük orqanlarının embleminin təsviri

1. Azərbaycan Respublikası gömrük orqanlarının emblemi kənarları tünd yaşıl rəngli xətlə haşiyələnmiş, ortasında xüsusi kompozisiya təsvir olunmuş qızılı rəngli səkkizguşəli ulduz şəklindədir.

2. Emblemin ortasında mavi və boz rəngli elementləri olan qalxan, onun arxasında qara və bürünc rəngli elementləri olan qılınc təsvir edilmişdir.

3. Qalxanı əhatə edən ağ rəngli lentdə tünd yaşıl rənglə «AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK XİDMƏTİ» sözləri yazılmışdır.

4. Ulduzun aşağı hissəsində sağ və sol tərəflərə istiqamətlənmiş yaşıl rəngli dəfnə çələngləri təsvir edilmişdir. Dəfnə çələnglərindən üstdə ağ rəngli açar şəkli vardır (emblemin şəkli əlavə edilir).

